# Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin hesabat yığıncağı



Yığıncağı açan DAMM-ın prezidenti, Azərbaycanın xalq şairi Söhrab Tahir dünya azərbaycanlılarını həmrəylik günü münasibəti ilə təbrik edərək dedi:

—Ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlişi digər sahələrdə olduğu kimi, Azərbaycanın mədəni irsinin təbliğatında da əsaslı dönüş yaratmışdır. Dahi şəxsiyyət bütün xarici ölkələrə səfərlərində Azərbaycan diasporunun nümayəndələri ilə görüşmüş, onların problem və qayğıları ilə maraqlanmış, həmvətənlərimizi müstəqillik qazanmış respublikamızın tarixi mənafelərinin reallaşdırılması prosesində fəal iştirak etməyə çağırmışdır.

2001-ci ilin 9-10 noyabr ayında Bakıda keçirilmiş Dünya Azərbaycanlılarının I Qurultayı xaricdə yaşayan soydaşlarımzın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda atılmış böyük addım oldu və bu Qurultay Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil oldu. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmlənməsini təmin etmək məqsədi ilə xüsusi dövlət qurumu yaradılması ideyası irəli sürüldü.

Ümummilli lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşması prosesini sürətləndirməyə xidmət edirdi.

Heydər Əliyev strategiyasını uğurla davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin hakimiyyəti dövründə Azərbaycanın hər bir bölgəsində geniş tikinti, abadlıq, quruculuq işləri davam etdirilmiş və bu gün də ölkəmiz ən qabaqcıl lider dövlətlər sırasında uğurla addımlayır.

DAMM-ın birinci vitse-prezidenti, Sabitlik və İnkişaf Mərkəzinin sədri Rasim Məmmədov DAMM-ın illik hesabatı ilə bağlı geniş və ətraflı məruzə etmişdir. Natiq bildirmişdir ki, 2013-cü il 16 sentyabrda Ukraynanın Donetsk şəhərində DAMM-ın təşkil etdiyi "İlhama "hə" deyirik" aksiyası uğurla həyata keçirildi və tədbirdə ölkəmizin tanınmış ziyalıları, ictimai xadimləri, incəsənət adamları və s. iştirak etmişlər.

2013-cü il dekabrın 28-29-da DAMM-ın təşkilatçılığı ilə Heydər Əliyev sarayında Azərbaycanın xalq artisti Könül Xasıyevanın "Qayıt, nə olar" adlı solo konserti keçirilmişdir.

R.Məmmədov hesabat məruzəsində bildirmişdir ki, 20 noyabr 2014-cü ildə Heydər Əliyev Mərkəzində "Anadangəlmə ürək xəstəliklərində yeniliklər" adlı Beynəlxalq konfransın rəsmi açılışı keçirilmiş, DAMM-ın üzvü, əməkdar həkim Rəşad Mahmudov çıxışında Azərbaycanda ürək əməliyyatlarının aparılması üçün geniş imkanların olduğunu bildirmişdir.

Hesabat məruzəsində qeyd olundu ki, DAMM-ın nümayəndə heyəti (R.Məmmədovun təşkilatçılığı ilə) Kalmıkiaya səfər etmiş, səfər zamanı Kalmıkiya Muxtar Respublikasının prezidenti Aleksey Orlov ilə rəsmi görüş keçirilmiş və Azərbaycanın incəsənət xadimləri geniş və rəngarəng konsert proqramları ilə çıxış etmişlər.

Azərbaycanın xalq şairi Nəriman Həsənzadə DAMM-ın fəaliyyətini yüksək qiymətləndirdi və bu təşkilatın rəyasət heyətinə seçilməsindən qürur duyduğunu bildirdi. Akademik Vasim Məmmədəliyev demişdir: "Söhrab Tahir başda olmaqla DAMM-ın gördüyü işlər təqdirəlayiqdir. Xüsusilə, gənc, enerjili vitse prezident Rasim Məmmədovun xarici ölkələrdəki fəaliyyəti alqışlara layiqdir". DAMM-ın Qadınlar Şurasının sədri Fəridə Ləman "Türkiyənin Birləşmiş Ürəklər Dərnəyi"nin təşəkkürnaməsini Söhrab Tahirə təqdim etdi. Tədbirdə DAMM-ın vitse-prezidenti, professor Rasim Nəbiyev, Musiqili Komediya Teatrının direktoru Əliqismət Balayev, ədəbiyyatşünas, alim Zümrüd Dadaşzadə, QHT-nın sədri Rauf Zeyni, bəstəkar Tahir Əkbər və başqaları DAMM-ın fəaliyyətini yüksək qiymətləndirdilər.

Sonra təşkilati məsələlərə baxılmışdır. Azərbaycanın xalq şairi Nəriman Həsənzadə DAMM-ın yeni vitse prezidenti, tanınmış alim Zümrüd Dadaşzadə, akademik Vasim Məmmədəliyev DAMM-ın Rəyasət Heyətinə üzv seçildilər. İran İslam Respublikasından gəlmiş şair Hüşəng Cəfəri vətənpərvər ruhlu şeir söylədi və bəstəkar Həsən Dəmirçinin ifası alqışlarla qarşılandı.

Tədbirin sonunda tanınmış xeyriyyəçi Gülnarə Əhmədovanın maliyyə dəstəyi ilə ərsəyə gəlmiş "Yaşayırsan, ulu öndər" klipi nümayiş etdirildi.

**Rauf İLYASOĞLU,**
**"Respublika".**